



REYTİNQ

# Asiyanın ən yaxşı universitetləri

## Asiya yeni bilik və ideyaların yayılmasında getdikcə daha mühüm rol oynayır

**Oruc MUSTAFAEYEV**

İyunun 22-də Böyük Britaniyanın “Times Higher Education” nəşri 2023-cü il üzrə Asiyanın ən nüfuzlu universitetlərinin reytinq cədvəlini (Asia University Rankings 2023) açıqlayıb. Çinin Tsinghua Universiteti və Pekin Universiteti ardıcıl dördüncü ildir ki, sıralamada birinci və ikinci yerləri tutur. Keçən ilki üç universitetlə müqayisədə bu il Çinin 4 ali məktəbi ilk 10-luqda qərarlaşıb. Reytinqin 10-luğunda aşağıdakı universitetlər yer alıb:

1.Tsinghua University, 2.Peking University, 3.National University of Singapore, 4.University of Hong Kong, 5.Nanyang Technological University, 6.Chinese University of Hong Kong, 7.The Hong Kong University of Science and Technology, 8.The University of Tokyo, 9. Fudan University, 10.Shanghai Jiao Tong University. 2023-cü il reytinqinə 31 ərazidən 669 universitet daxildir. Yaponiya 117 qurumla bu il də reytinqdə ən çox təmsil olunan ölkə olaraq qalır. Qardaş Türkiyə Cümhuriyyəti reytinqdə 61 universitetlə təmsil olunur. Koç Universiteti sıralamada ilk 100-lükdə - 52-ci yerdədir. Türkiyə beynəlmiləlləşmə komponentinə görə ən yaxşı göstəricilərdən birinə malikdir (buraya üç alt göstərici daxildir: beynəlxalq tələbələrin yerli tələbələrə nisbəti; beynəlxalq və yerli kadrların nisbəti; xaricdəki alimlərlə tədqiqat əməkdaşlığı). Ölkənin göstəricisi ötən illə müqayisədə 2,6 bal artaraq 27,1-dən 29,7-yə çatıb.

THE-nin dərin təhlilinə əsasən bəzi ölkələrdə ali təhsilin beynəlmiləlləşməsi tələbələrin təhsil almaq üçün Türkiyəyə axın etməsini şərtləndirib. Lakin bütün ölkələrdə qloballaşma (xarici tələbələrin, xarici müəllimlərin və tədqiqatlarda beynəlxalq əməkdaşlığın balları ilə ölçülür) artımı müşahidə edilmir.

Builki Asiya universitetləri reytinqi sayca 11-ci nəşrdir və on ildən çoxdur ki, adıçəkilən etibarlı məlumatlarla bizə bölgədəki mühüm tendensiyaları araşdırmağa imkan verir.

Asiyanın ən yaxşı universitetlərinin yeni reytinqindən məlum olur ki, universitet alimlərinin elmi məqalələrinə istinadlar Asiyada dünyanın qalan hissəsinə nisbətən daha sürətli artır. Asiya yeni bilik və ideyaların bütün dünyada yayılmasında getdikcə daha mühüm rol oynayır. Son 5 ildə region ölkələri tədqiqatların təsirini ölçən, universitetin nəşr olunmuş elmi məqalələrinə bütün dünyada elm adamları tərəfindən aparılan sitatgətirilmə balını xeyli yaxşılaşdırıblar. Hazırda üç Asiya ölkəsi - Honkonq, Səudiyyə Ərəbistanı və Çin orta dünya göstəricisindən daha yüksək bala malikdir. Pakistan kimi digər ölkələr hələ də orta dünya göstəricisindən aşağı mövqe tutur, lakin son illərdə artım müşahidə olunur. Bu sahədə enmənin qeydə alındığı yeganə ölkə Yaponiyadır. Bəzi ölkələrdə sitatgətirmə reytinqinə görə ən yaxşı 6 fənnə baxsaq görərik ki, bu bölgədə incəsənət və humanitar elmlərə deyil, təbiət elmlərinə və ictimai elmlərə daha çox diqqət yetirilir. Xüsusilə biznes və iqtisadiyyat, həmçinin kompüter elmləri və mühəndislik sahəsində elmi məqalələr daha yüksək sitat gətirir.

Reytinqlə daha ətraflı *https://www.timeshighereducation.com/world-university-rankings/2023/regional-ranking* səhifəsindən tanış olmaq olaq.

| Reytinq | Ali təhsil müəssisəsinin adı | Ölkə | Tələbələrin ümumi sayı | Müəllim-tələbə nisbəti | Əcnəbi tələbə sayı | Kişi-qadın nisbəti |
|---|---|---|---|---|---|---|
| 1 | Tsinghua University | Çin | 38,324 | 11.6 | 10% | əks olunmayıb |
| 2 | Peking University | Çin | 31,994 | 10.3 | 19% | əks olunmayıb |
| 3 | National University of Singapore | Sinqapur | 32,337 | 19.8 | 25% | 51 : 49 |
| 4 | University of Hong Kong | Honkonq | 18,087 | 18.2 | 43% | 54 : 46 |
| 5 | Nanyang Technological University, Singapore | Sinqapur | 24,651 | 15.1 | 25% | 48 : 52 |
| 6 | Chinese University of Hong Kong | Honkonq | 18,468 | 19.0 | 21% | əks olunmayıb |
| 7 | The Hong Kong University of Science and Technology | Honkonq | 9,864 | 21.0 | 32% | əks olunmayıb |
| 8 | The University of Tokyo | Yaponiya | 26,112 | 10.5 | 15% | əks olunmayıb |
| =9 | Fudan University | Çin | 36,318 | 11.9 | 9% | 52 : 48 |
| =9 | Shanghai Jiao Tong University | Çin | 37,478 | 11.5 | 8% | 42 : 58 |
| 11 | Seoul National University | Cənubi Koreya | 26,209 | 15.1 | 10% | əks olunmayıb |
| 12 | Zhejiang University | Çin | 46,124 | 12.0 | 16% | əks olunmayıb |
| 13 | Yonsei University (Seoul campus) | Cənubi Koreya | 19,481 | 14.7 | 17% | 50 : 50 |
| 14 | Hong Kong Polytechnic University | Honkonq | 19,046 | 28.9 | 30% | 51 : 49 |
| 15 | University of Science and Technology of China | Çin | 18,573 | 8.1 | 6% | əks olunmayıb |
| 16 | City University of Hong Kong | Honkonq | 9,099 | 12.1 | 62% | 54 : 46 |
| 17 | Korea Advanced Institute of Science and Technology (KAIST) | Cənubi Koreya | 9,946 | 10.7 | 9% | 21 : 79 |
| 18 | Kyoto University | Yaponiya | 22,269 | 9.2 | 12% | 25 : 75 |
| 19 | Nanjing University | Çin | 36,426 | 16.5 | 8% | 54 : 46 |
| 20 | King Abdulaziz University | Səudiyyə Ərəbistanı | 31,545 | 7.8 | 22% | 54 : 46 |
| 21 | Ulsan National Institute of Science and Technology (UNIST) | Cənubi Koreya | 3,896 | 13.6 | 9% | 27 : 73 |
| 22 | Pohang University of Science and Technology (POSTECH) | Cənubi Koreya | 3,260 | 10.0 | 3% | əks olunmayıb |
| 23 | Southern University of Science and Technology | Çin | 5,137 | 8.8 | 1% | əks olunmayıb |
| 24 | Sungkyunkwan University (SKKU) | Cənubi Koreya | 23,399 | 19.4 | 18% | əks olunmayıb |
| 25 | Huazhong University of Science and Technology | Çin | 57,167 | 16.2 | 4% | əks olunmayıb |
| 26 | Wuhan University | Çin | 55,412 | 15.2 | 6% | əks olunmayıb |
| 27 | Korea University | Cənubi Koreya | 22,507 | 15.8 | 27% | əks olunmayıb |
| 28 | Qatar University | Qətər | 9,084 | 8.8 | 35% | 77 : 23 |
| =29 | King Fahd University of Petroleum and Minerals | Səudiyyə Ərəbistanı | 7,268 | 8.6 | 10% | 2 : 98 |
| =29 | National Taiwan University (NTU) | Tayvan | 25,215 | 11.4 | 11% | 42 : 58 |
| =29 | Sichuan University | Çin | 49,543 | 15.8 | 6% | əks olunmayıb |
| 32 | Tel Aviv University | İsrail | 23,834 | 23.0 | 7% | 57 : 43 |
| 33 | China Medical University, | Tayvan | 7,284 | 15.5 | 9% | 56 : 44 |
| 34 | Tohoku University | Yaponiya | 17,812 | 12.4 | 14% | 28 : 72 |
| =35 | Kyung Hee University | Cənubi Koreya | 20,504 | 17.7 | 27% | 55 : 45 |
| =35 | Macau University of Science and Technology | Makao | 11,993 | 38.1 | 91% | 57 : 43 |
| 37 | University of Macau | Makao | 10,460 | 15.4 | 39% | 55 : 45 |
| 38 | King Saud University | Səudiyyə Ərəbistanı | 33,931 | 10.6 | 14% | 44 : 56 |
| 39 | Sejong University | Cənubi Koreya | 12,356 | 20.8 | 13% | 48 : 52 |
| 40 | United Arab Emirates University | Səudiyyə Ərəbistanı | 7,121 | 10.9 | 17% | 80 : 20 |
| 41 | Tongji University | Çin | 30,153 | 10.8 | 12% | 46 : 54 |
| 42 | Beijing Normal University | Çin | 24,416 | 14.3 | 10% | əks olunmayıb |
| 43 | Taipei Medical University | Tayvan | 5,946 | 9.1 | 10% | 58 : 42 |
| 44 | Sun Yat-sen University | Çin | 57,951 | 15.1 | 5% | 49 : 51 |
| =45 | Khalifa University | Birləşmiş Ərəb Əmirlikləri | 3,029 | 8.8 | 22% | 58 : 42 |
| =45 | University of Sharjah United Arab Emirates | Birləşmiş Ərəb Əmirlikləri | 12,933 | 19.2 | 55% | 67 : 33 |
| 47 | Osaka University | Yaponiya | 22,485 | 10.5 | 10% | 33 : 67 |
| 48 | Indian Institute of Science | Hindistan | 3,990 | 8.8 | 1% | 27 : 73 |
| =49 | Asia University, Taiwan | Tayvan | 11,421 | 30.3 | 7% | 62 : 38 |
| =49 | Hebrew University of Jerusalem | İsrail | 16,175 | 11.3 | 5% | 57 : 43 |
| =49 | Nagoya University | Yaponiya | 15,224 | 12.8 | 12% | 30 : 70 |
| 52 | Koç University | Türkiyə | 5,882 | 19.7 | 8% | 48 : 52 |
| 53 | Alfaisal University | Səudiyyə Ərəbistanı | 2,851 | 10.2 | 32% | 59 : 41 |
| 54 | Central South University | Çin | 56,344 | 20.4 | 4% | əks olunmayıb |
| 55 | Harbin Institute of Technology | Çin | 30,542 | 10.5 | 6% | əks olunmayıb |
| 56 | Tokyo Institute of Technology | Yaponiya | 9,878 | 9.5 | 17% | 16 : 84 |
| =57 | Hanyang University | Cənubi Koreya | 20,079 | 14.6 | 20% | əks olunmayıb |
| =57 | South China University of Technology | Çin | 40,082 | 12.7 | 5% | 39 : 61 |
| 59 | Abu Dhabi University | Birləşmiş Ərəb Əmirlikləri | 3,926 | 18.1 | 60% | 51 : 49 |
| 60 | Universiti Brunei Darussalam | Brunei Darussalam | 3,641 | 10.8 | 14% | 66 : 34 |
| =61 | Nankai University | Çin | 31,322 | 11.3 | 5% | əks olunmayıb |
| =61 | Tianjin University | Çin | 27,353 | 8.7 | 12% | əks olunmayıb |
| 63 | Universiti Teknologi Petronas | Malayziya | 5,021 | 13.6 | 16% | 38 : 62 |
| 64 | Sharif University of Technology | İran | 9,219 | 22.5 | 2% | 25 : 75 |
| 65 | Mazandaran University of Medical Sciences | İran | 7,845 | 15.1 | 1% | 57 : 43 |
| 66 | University of Malaya | Malayziya | 18,320 | 9.8 | 18% | 58 : 42 |
| 67 | Hunan University | Çin | 41,580 | 18.6 | 2% | 47 : 53 |
| 68 | JSS Academy of Higher Education and Research | Hindistan | 7,891 | 9.5 | 7% | 54 : 46 |
| =69 | East China Normal University | Çin | 28,055 | 14.7 | 11% | 64 : 36 |
| =69 | Golestan University of Medical Sciences | İran | 3,721 | 11.5 | 11% | 60 : 40 |
| =71 | American University of Beirut | Livan | 9,267 | 8.7 | 22% | 51 : 49 |
| =71 | Kurdistan University of Medical Sciences | İran | 3,181 | 10.5 | 2% | 49 : 51 |
| =71 | Shenzhen University | Çin | 38,240 | 14.1 | 1% | 46 : 54 |
| 74 | Iran University of Science and Technology | İran | 15,436 | 33.9 | 1% | 34 : 66 |
| 75 | Imam Mohammad Ibn Saud Islamic University | Səudiyyə Ərəbistanı | 43,110 | 10.8 | 3% | 39 : 61 |
| 76 | Sabancı University | Türkiyə | 3,819 | 20.0 | 10% | 38 : 62 |
| 77 | Shoolini University of Biotechnology and Management Sciences | Hindistan | 2,973 | 14.3 | 2% | 45 : 55 |
| =78 | Babol Noshirvani University of Technology | İran | 6,180 | 28.7 | 0% | 33 : 67 |
| =78 | Southeast University | Çin | 37,484 | 12.3 | 4% | 36 : 64 |
| =78 | Southern Medical University | Çin | 20,432 | 10.7 | 6% | əks olunmayıb |
| 81 | Xiamen University | Çin | 42,760 | 15.4 | 2% | əks olunmayıb |
| 82 | University of Hail | Səudiyyə Ərəbistanı | 19,366 | 11.2 | 10% | 63 : 37 |
| 83 | Qazvin University of Medical Sciences | İran | 2,598 | 9.2 | 1% | 57 : 43 |
| 84 | Ateneo de Manila University | Filippin | 13,159 | 10.0 | 4% | 51 : 49 |
| 85 | National Yang Ming Chiao Tung University | Tayvan | 16,425 | 14.2 | 11% | 36 : 64 |
| =86 | Babol University of Medical Sciences | İran | 4,102 | 11.8 | 0% | 58 : 42 |
| =86 | University of Electronic Science and Technology of China | Çin | 35,232 | 15.4 | 3% | 30 : 70 |
| =86 | Ton Duc Thang University | Vyetnam | 27,878 | 25.3 | 1% | 56 : 44 |
| 89 | Middle East Technical University | Türkiyə | 17,151 | 22.5 | 10% | 48 : 52 |
| 90 | Northwestern Polytechnical University | Çin | 34,095 | 13.9 | 4% | 28 : 72 |
| 91 | Beihang University | Çin | 31,821 | 12.9 | 4% | əks olunmayıb |
| =92 | Beijing Institute of Technology | Çin | 35,710 | 14.2 | 6% | əks olunmayıb |
| =92 | Qom University of Medical Sciences | İran | 2,272 | 9.1 | 4% | 57 : 43 |
| 94 | Gwangju Institute of Science and Technology (GIST) | Cənubi Koreya | 1,808 | 10.0 | 8% | 25 : 75 |
| =95 | Mahatma Gandhi University | Hindistan | 1,855 | 14.6 | 2% | 61 : 39 |
| =95 | National Tsing Hua University | Tayvan | 13,711 | 16.3 | 11% | 41 : 59 |
| =95 | Xi’an Jiaotong University | Çin | 44,942 | 14.1 | 6% | 35 : 65 |
| 98 | Quaid-i-Azam University | Pakistan | 9,250 | 16.5 | 1% | 51 : 49 |
| =99 | Cankaya University | Türkiyə | 7,113 | 25.4 | 1% | 46 : 54 |
| =99 | University of International Business and Economics | Çin | 16,061 | 15.7 | 15% | 69 : 31 |